# Həqiqətən, Allah mənim ümmətimin, əməl etmədikcə və söyləmədikcə nəfsində danışdıqlarının üstündən keçmişdir”

Əbu Hureyradan (Allah ondan razı olsun) rəvayət edilir ki, Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) belə buyurdu: "Həqiqətən, Allah mənim ümmətimin, əməl etmədikcə və söyləmədikcə nəfsində danışdıqlarının üstündən keçmişdir”.
[Səhih] [Müttəfəqun aleyhi(əl-Buxari və Musliminsəhih gördüyü hədislər)]

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) bizə xəbər verir ki, bir müsəlman pis əməl etməmişdən və ya onun haqqında danışmamışdan əvvəl öz nəfsində danışmasına görə cəzalandırılmaz, çünki Allah çətinliyi aradan qaldırıb və əfv etmişdir və Muhəmmədin (Allahın salavatı və salamı onun üzərinə olsun) ümməti ağlına gələn və nəfsində keçirdiyinə görə onunla razılaşıb və qəlbində yerləşdirmədikcə cəzalandırılmaz; Lakin əgər qəlbində təkəbbür, lovğalıq və ya nifaq yerləşərsə, yaxud əzaları ilə əməl edərsə və ya dili ilə söyləyərsə, bunun hesabını verəcəkdir.

http://www.sunnah.global/hadeeth/az/show/58144